**UOT 82**
**https://doi.org/10.59849/2311-8482.2024.1.22**

**ŞƏMSƏ GÜLMƏMMƏDOVA***

# XURŞİDBANU NATƏVAN

*Təqdim edilən məqalədə Qarabağ xanının qızı, "Məclisi-üns" şeir və musiqi məclisinin rəhbəri, Azərbaycanın sevimli şairəsi Xurşidbanu Natəvanın həyat və yaradıcılıq yolu işıqlandırılmışdır. Şairənin həyat yolu, fəaliyyəti, dövrün görkəmli simaları ilə görüşləri haqqında məlumat verilir. Məqalədə Xurşidbanu Natəvan və böyük fransız yazıçısı Aleksandr Düma ilə tarixi görüşü təsvir edilir və əhəmiyyəti vurğulanır. Məqalədə həmçinin şairənin dərin elm və bilik sahibi olması, bundan başqa gözəl rəsm çəkməsi haqqında məlumatlar verilmişdir. Burada həmçinin Xurşidbanu Natəvanın şeirlərindən parçalar da təqdim olunur.*

***Açar sözlər**: Xurşidbanu Natəvan, Qarabağ, Məclisi üns, şeir, musiqi, şairə.*

## Giriş

Xurşidbanu bəyim Mehdiqulu xan qızı Sarıcalı-Cavinşir 15 avqust 1832-ci ildə Azərbaycanın dilbər guşəsi, qədim mədəniyyət mərkəzi olan Şuşada anadan olmuşdu. Natəvanın dünyaya gəlişi ailəsinə və Şuşa camaatına Tanrının sanki bir töhfəsi idi. Çünki Natəvan dünyaya gələndə Mehdiqulu xan 60 yaşında idi. Natəvan onun illərlə gözlədiyi övladı idi. Mehdiqulu xan qızına öz anasının adını verir. Xurşidbanu ailənin yeganə övladı, Qarabağ xanlığının sonuncu vərəsəsi idi. Sarayda onu «Dürrü yekta» (yəni tək inci), el arasında isə «Xan qızı» çağırmışlar.

## Əsas təhlil

Xuşidbanu bəyim ilk təhsilini dövrünün alim və sənətkarlarından almışdır. O, həmçinin «Quran» ayələri və dünyəvi elmlərlə yaxından tanış olmuşdur. O, doğma dili ilə yanaşı ərəb, fars dillərini mükəmməl öyrənmiş, klassik şeir qayda-qanunlarının dərinliklərinə yiyələnmişdi. Bütün bunlarla yanaşı o, çox diqqətli, fitri yaddaşa malik olmuşdur. Mütaliə isə onun sevimli məşğuliyyəti idi. Nadir kitablar, qiymətli əlyazmalar Xurşidbanunun dünyagörüşünün bədii zövqünün formalaşmasında rol oynamışlar. O, nəinki Azərbaycan ədəbiyyatında, mədəniyyətində, hətta ictimai həyatında da dərin izlər salmışdı. Elə bir insanın yetişməsində əlbəttə onun soy-kökü də böyük rol oynayırdı. Natəvan iki böyük nəslin - Cavanşirlərin və Ziyadoğlu Qacarların qanını daşıyırdı. Xurşidbanun fitri istedadının üzə çıxmasında Şuşa ədəbi mühiti böyük rol oynamışdı. Natəvan şairliklə yanaşı, istedadlı rəssam da olmuşdu. Onun bədii tikmələri «Gül dəftəri» buna sübutdur. O rəssamlıqla məşğul olmuş, nəfis əl işləri, müxtəlif janrda tikmələr bacarağına da yiyələnmişdi. O, naturadan çəkməyə, obyekti birbaşa təsvirə üstünlük verir, real rəssamlıq nümunələri yaradırdı. Onun çəkdiyi «Gül», «Ağac», «Budaq», «Üzüm salxımı», «Ev», «Çiçək» rəsmləri təbii, inandırıcı və lirikdir.

Xurşidbanunun həyatında yaddaqalan tarixi hadisələrdən biri də böyük fransız yazıçısı Aleksandr Düma ilə Bakıda görüşüdür. Düma xatirələrində belə yazır: «Mənim dəvət olunduğum evdəki məclisdə iki tatar (azərbaycanlı) knyaz qadını və kiçiyinin əri iştirak edirdilər. Açıq deməliyəm ki, onlar gəlişimizi səbirsizliklə gözlədiklərindən bizi sevinclə qarşıladılar. Knyaz qadınlarından biri Qarabağın son hakimi Mehdiqulu xanın arvadı, digəri qızı idi. Anasına 40, qızına 20 yaş verməк olardı. Hər ikisi milli paltar geyinmişdi. Qızı bu bahalı, həm də zərif paltarda olduqca cazibədar görünürdü. Öz anası kimi geyinmiş üç-dörd yaşlı qız uşağı təəccüb doğuran iri gözləri ilə bizə baxırdı. Həmçinin 5-6 yaşlı oğlan nənəsinin dizi üstündə oturub, instinktiv olaraq, hər cür təsadüfə hazır vəziyyətdə öz xəncərinin dəstəyindən yapışmışdı... İki tərəfi də iti olan həqiqi xəncəri fransız ana heç vaxt uşağının əlinə verməz. Heyrət edirəm ki, (azərbaycanlı) analar üçün bu, uşaq oyuncağı idi. Ataları knyaz Xasay xan Usmiyev... Andreyevo kəndində doğulmuş, 35 yaşlı, yaraşıqlı, məğrur bir kişi idi. Fransızca əsl parisli kimi danışırdı. O, əyninə qara kostyum geymiş, başına zərlə işlənmiş sivri uclu şapka qoymuşdu. Belindən fıl sümüyündən dəstəyi və qızıla tutulmuş qını olan xəncər asılmışdı».

Natəvan öz xeyriyyəçiliyi və xeyirxahlığı ilə Şuşa əhalisinin qəlbinə yol tapmışdı.

1973-cü ildə Şuşaya su kəməri çəkdirmiş, bu kəmər «Xan qızı bulağı» adı ilə məşhur olmuşdu. O, hətta Araz çayından Mil düzünə su çəkmək təşəbbüsünü irəli sürmüşdür. Deyilənlərə görə, Natəvandan kömək istəyən heç bir insanın əlini boş qaytarmamışdır. Köməksizlərin həmişə köməyi olmuşdur. Ona görə Şuşa əhli onu ürəkdən sevmiş və dərin hörmət bəsləmişdi.

O, yaradıcılığa 1850-ci illərdən ənənəvi şərq mövzusu və şeirlərlə başlamışdı. Qəzəllərində məhəbbət, insani gözəlliklər, təbiət gözəllikləri əsas yer tutur. Füzuli yaradıcılığından bəhrələnən şairə insani keyfiyyətləri hər şeydən uca tutmuş, bu dünyanın fani olmasına inanmışdı. Natəvan yaradıcılığı boyu Füzulinin poetik cazibəsindən uzaqlaşa bilməmişdi.

Yenə, ya rəbb, nə qəmgindir mənim bu şad olan könlüm,
Rümuzi-eşqdən ağah olub, ustad olan könlüm.

Görübdür yari əğyarə olubdur məhvi-nəzzarə,
Edibdir sinəsin parə, mənim abad olan könlüm.

Niyə peymanədən keçdin, niyə zəncirdən qaçdın?
Nədəndir çöllərə düşdün, mənim bərbad olan könlüm?

Fəraqin ruzi-matəmdir, sərasər möhnəti-qəmdir,
O zülfün kimi dərhəmdir, mənim azad olan könlüm.

Baxın bu Natəvan zarə, günü bəxti kimi qarə,
Gəzər Məcnun tək avarə, mənim naşad olan könlüm.

Klassik şeirlə yanaşı, aşıq yaradıcılığı da Natəvan irsində özünəməxsus yer tutur. XVI əsrdə yaşayıb-yaradan Qurbanidən bu günə qədər bir çox şairlər, ustadlar baharın elçisi olan bənövşə gülü haqqında şeirlər yazmışlar. Ətirli, zərif olduğu qədər də vəfalı, sevimli olan bu çiçək nakamlıq rəmzi kimi də tanınır. Səma rəngli bu gülün çöldə, qayaların, kolların dibində bitməsi gülşəndən küskünlük kimi mənalandırılır. Bənövşə boynu bükükdür, çünki aşiqi vəfasızdır. Bənövşə ətirlidir. Ətri yarın zülfünün ətrini xatırladır. Natəvan bənövşə kimi kövrək, qəmli hisslərini "Bənövşə" şerində belə dilə gətirir:

Fələk rənginə bənzər bu bənövşə,
Tutub səhraları hərsu, bənövşə!

Neçün gülşənlərin tərkin qılıbsan?
Düşübsən çöllərə dilcu, bənövşə!

Belə qəddin bükülmüş, pirlər tək,
Deyirsən sübhü şam yahu, bənövşə!

Səni şövqi-bahar aşüftə qılmış,
Çəkər aşiq olan qayğu, bənövşə!

Dilər ətrin könül badi-səbadan,
O zülfi-yar tək xoşbu bənövşə!

Xurşidbanu bəyim Qarabağda fəaliyyət göstərən ədəbi məclis - məclisin yaradıcıları Mirzə Rəhim Fəna və Hacı Abbas Ağəh olmuşdur. Məclis 1972-ci ilə qədər adsız fəaliyyət göstərmişdir. Həmin ildən ədəbi məclisə Xurşidbanu Natəvan rəhbərlik etmiş və məclis öz fəaliyyətini Qarabağ xanının sarayına köçürərək, davam etdirmişdir. «Məclisi-üns» - dostluq-ünsiyyət məclisi mənasını ifadə edir. Məclisin yığıncaqlarında şairlərlə yanaşı, musiqi xadimləri də iştirak etmişdir. Musiqi məclisi daha da canlandırmış, müzakirələrin məzmununa ciddi təsir göstərmişdir. Rəvayətlərə görə Xurşidbanu Natəvan narı dənələtdirib buzxanaya tökər və əmələ gələn narlı buz parçalarını «Məclisi-üns» yığıncaqlarında süfrəyə verdirərmiş, buz parçasındakı nar dənələri şam işıqları altında yaqut kimi parlarmış. Bu da məclisə daha da gözəlləşdirirmiş. Məclisdə Şuşa ziyalıları Natəvanın başına toplaşıb, əlaqəli ədəbi-elmi söhbətlər, fikirlər mübadilələri aparmışlar. Bu dövrdə məclisin 30-dan artıq üzvü olmuşdur. Görkəmli ədəbiyyatşünas Firudin bəy Köçərli yazmışdı: «Xüsusən Qarabağ şairləri nəhəng qartallar kimi Şuşa dağlarının poetik zirvəsində məskən salaraq, öz fövqlərindən

poeziyaya ton vermişlər» [7, s.13]. Təxminən iyirmi ilə qədər Xurşidbanu məclisə rəhbərlik etmişdi. «Məclisi-üns» ədəbi məclisində yaranan əsərlər Azərbaycan, fars və cığatay dillərini əhatə etmişdi. Məclisdə Şərq şeirinin poetik özəllikləri öyrənilmiş, Nizami, Xəqani Şirvani, Qətran Təbrizi, Füzuli, Nəsimi, Xətai kimi klassiklərdən tərcümələr edilmiş, onlardan bəhrələnmişlər. Xurşidbanu Natəvanın "Məclisi-üns"ü yaratması haqda A.Əlverdibəyov yazır ki; "İbrahim xanın oğlu Mehdiqulu xandan sonra xanlıq Xurşidbanu Natəvana keçmişdi. Cəmi şərq aləmində hərəmxanalarda arvadlar çarşab və rübənd altında biqeyd vəqt keçirməkdən rəğmən, Xurşidbanu bəyim təbiətin istedad və sənayei- nəfsinənincə şöbələri ilə təltif olunub özünü filosoflar, şairlər və rəssamlar, musiqişünaslar, musiqiçilərlə əhatə etmişdi" [1, s.124].

Natəvanın yaradıcılığının coşqun çağları Qarabağ ədəbi məclislərinin fəaliyyət göstərdiyi dövrlə sıx bağlıdır. F.Köçərlim bu dövrü "XIX əsr ədəbiyyatının xoşbəxt zamanı" adlandırmışdır. R.İmrani bu xüsusda yazır: "Şuşa xanəndəlik sənətinin beşiyi sayıldığı üçün dövrün bir sıra tərəqqipərvər şəxsləri, ədəbiyyatçıları da musiqi məclislərində iştirak edər, xanəndələrin oxuduqları qəzəllərin ahənginə, şeirin tələffüzünə və musiqi ilə şeirin vəhdətinə xüsusi diqqət yetirərdilər" [5, s.14].

Məclisdə deyişmələr və bu deyişmələrin özünəməxsusluğu diqqəti cəlb edir. Bu bədahətən deyişmələr dövrümüzə qədər gəlib çatmışdı.

Natəvan: Kaş əzəldən gəlməyəydim, ey fələk dünyayə mən,
Kəminə: Gəldiyim gündən əsirəm bir quru sevdayə mən.

Fəna: Vermişəm dil, bağlayıb bel bir vəfasız dilbərə,
Növrəs: Salmışam billah, bəlasız başımı qovğayə mən.

Nəzən: Əhli-aləmdə, könül, nə sidq vardır, nə səfa,
Məxfi: Mehirsizdirlər sərasər, kimsədə yoxdur vəfa.

Təbib: İndi ki, var dustaqlarda hiyləvü-kizbi-riya,
Aşıq: Nə görəydim hiyləni, həm də düşəydim vayə mən.

Qızı Xanbikə xanım da anasının yolunu davam etdirmiş, qəzəllər və rübailər yazmışdı. Xanbikə xanımın bir neçə qəzəli Vasif Quliyevin "Dünənə uzanan cığır" kitabında çap olunmuşdu. O, həmçinin "Məclisi-üns"ün üzvlərindən biri olmuşdur.

Öz gözəlliyi ilə dillər əzbəri olan Xurşidbanu həyatda öz xoşbəxtliyini tapa bilməmişdi. Xurşidbanu özünə «Natəvan» sözünü (yəni kimsəsiz, köməksiz) təxəllüs götürmüşdü. Tale onu qəribə sınaqlarla üz-üzə qoymuşdu. Natəvanın yaşadığı dövrdə xarici və daxili vəziyyətin ciddi surətdə gərginləşməsi, xan ailələri üzərində nəzarəti gücləndirmiş və Xurşidbanu Xasay xan Usmiyevlə izdivaca məcbur edilmişdi. Bəzilərinə görə isə Vorontsovun şəxsi yavəri Xasay xan Tiflisdə onlara mülk iddialarında kömək göstərmiş və bunun müqabilində Xurşidbanuya evlənmək təklifi etmişdir. 1850-ci ildə Xasay xan Şuşaya gəlib toy etmiş, sonra isə Xurşidbanunu Dağıstana doğma kəndinə, oradan da Tiflisə aparmışdır. 18 yaşlı Natəvan həyatının çiçək açdığı bir dövrdə vətənindən uzaqda yaşamağa məcbur olmuş, çox vaxt tək qaldığı üçün sıxılmış, qəriblik çəkmişdi. Gənc ailənin bir müddət övladları olmamışdı. Bu da Natəvana bir dərd idi. Deyilənlərə görə, Natəvan müqəddəs ocaqlara ziyarətə getdikdən sonra (1854-cü il Bakının Şıx kəndindəki Bibixanım məscidi) 5 il tamamında onun bir oğlu dünyaya gəlir. Adlını Mehdiqulu qoyurlar (1855). Sonra isə qızı Xanbikə (1856) dünyaya gəlir. Amma Xasay xanın Natəvanla bu ailə münasibəti çox uzun çəkmir. Natəvan xəstələndiyi üçün Şuşaya gəlir, bir müddət orada yaşayır. 1861-ci ildən Natəvanın anası Bədircahan bəyim vəfat edir. Ailənin bütün ağırlığı şairənin üzərində cəmləşir. O, xanlığın ixtiyarında olan kəndləri, yaylaq yerlərini zavod və dəyirmanlarını təkbaşına idarə etməli olur. Bütün bu ağırlıq zəif bir qadın çiynində yüklənir. 1864-cü ildə əri Xasay xan ailəsini Şuşada qoyub, vətəninə qayıdır, 1866-cı ildə isə özünü orada öldürür. Bədxah insanlar bu hadisədən sonra Natəvan haqqında mənasız, yersiz söz-söhbətlər, heç bir əsası olmayan böhtanlar danışırlar, hətta onun xeyirxah əməllərinə dodaq büzürlər. Şairəni ləkələmək, el arasında gözdən-nüfuzdan salmaq istəyirlər. Gənc və gözəl Natəvan bütün bunları özünə dərd etsə də, xeyirxah əməllərinin - körpü, yolların salınması, məktəb və məscidlərin tikilməsi, köhnə binaların təmiri kimi xeyirxah işlərini davam etdirir. Başı nə qədər bu işlərə qarışsa da, bütün

bu haqsızlıqlar bir qadın qəlbini incidir, bu ağrılar göz yaşına çevrilib, yanağı boyunca süzülürdü. Bütün bu söz-söhbətlərə son qoymaq üçün 1869-cu ildə Natəvan Seyid Hüseyn adlı kasıb bir Şuşalıya ərə gedir. Hüseyn diribaşlığı, əməksevərliyi, mədəni davranışı ilə bir çox cavanlardan seçilirdi. Bütün bu müsbət keyfiyyətləri ilə o, Natəvanın qəlbinə yol tapa bilir. Evləndikdən sonra təsərrüfat işlərinin bir çoxunu öz üzərinə götürür. Natəvanın bu evlilikdən – Mir Abbas adlı oğlu dünyaya gəlir. Amma təəssüf ki, o ağır xəstələnir, 17 yaşında vəfat edir. Övladının vaxtsız ölümü, onsuzda dərin iztirablar, mənəvi böhranlar keçirən anaya ağır bir dərd olur. Şairə «Ağlar», «Əfsus», «Getmə» rədifli qəzəllərini oğlunun ölümünə həsr etmişdi. O, bu dərdən xəstələnərək yatağa düşür. Səhhəti bir qədər yaxşılaşdıqdan sonra Tiflisə gedir, orada müalicə olunur. 1888-ci ildə Natəvan yenidən müalicə almaq üçün Tiflisə gedir. Bir il orada qalıb, yenidən Şuşaya qayıdır. Amma səhhəti get-gedə daha da pisləşir, günlərlə, hətta həftələrlə xəstə yatır. 1891-ci ildə isə həyatın daha amansız bir zərbəsi ona dəyir. Əri vəfat edir. Bu onun səhhətinə daha da pis təsir edir, çətin vəziyyətini daha da ağırlaşdırır. Elə bu illərdə evində xeyirxah məqsədlər üçün ayırdığı bir sandıq qızıl pul və qiymətli əşyaları oğurlanır. Bu hadisə Natəvanın Arazdan Mil düzünə çəkdirməyə başladığı arxın Kəngərli məntəqəsində yarımçıq qalmasına səbəb olur. Həyatının son illəri daha ağırlı və qüssəli keçmişdi. Yararlı torpaqları, yaylaqları əlindən çıxmış, borca düşmüşdü. Deyilənlərə görə maddi çətinlik üzündən ev əşyalarını, evini, mülklərini, bağını, zinət əşyalarını satışa çıxarmışdı.

Təbiidir ki, Natəvan kimi istedad və bacarıq sahibi yalnız bir sahədə inkişaf edib qala bilməzdi. Artıq 1870-1880-cı illərdə onun həyatında və yaradıcılığında yeni mərhələ başlamışdır. Şairə maarifin, mədəniyyətin yayılmasına kömək göstərmiş, ictimai-mədəni tədbirlərdə fəal işirak etmişdir. Natəvan yollar çəkilməsinə, körpülər salınmasına, məktəb binası tikilməsinə illik gəlirdən xüsusi fond ayırmışdır. İncəsənətin bütün növlərinə bələd olması Natəvanı dövrünün görkəmli sənətkarları ilə yaxınlaşdırmışdır. Onun düzəltdiyi ziyafətlərin, söhbət məclislərinin iştirakçıları çox vaxt müxtəlif sənəti təmsil edən ziyalılar olmuşdur. Uzaq şəhərlərdə oxuyan azərbaycanlı tələbələr, yoxsul alim, şair və sənətkarlar Xurşidbanudan yardım almışlar. Qarabağla birlikdə bütün Zaqafqaziyanın sənət sahibləri onun himayəsinə sığınırdılar.

Natəvan yaradıcılığının bir hissəsini şairənin şəxsi faciəsi ilə əlaqədar olaraq 1885-1886-cı illərdə yazdığı silsilə şeirləri təşkil edir. Bu əsərlərdə oğlunun ölümü ilə ağır matəmə batan, mənəvi sarsıntılara məruz qalan və göz yaşları içərisində boğulan bədbəxt ananın ah-naləsi eşidilir. Xurşidbanunun iztirabları, əzabları çoxaldıqca şəxsi kədər dairəsindən kənara çıxıb, çox analara məxsus olan ələm və qüssə həddinə çatmışdır.

Xurşidbanu Natəvan 1897-ci il oktyabrın 1-də Şuşada vəfat etmişdir. Şuşa camaatı hörmət əlaməti olaraq şairənin cənazəsini Şuşadan Ağdama qədər çiyinlərində aparmış, Ağdamda "İmarət" deyilən ailə qəbristanlığında dəfn olunmuşdu. Onun ölümü ziyalıların, şairlərin, ədiblərin kədərlənməsinə səbəb olmuş, Məhəmməd ağa Müştəri, Mirzə Rəhim Fəna və başqaları Natəvanın ölümü münasibəti ilə mərsiyələr yazmışlar.

**Nəticə**

Azərbaycan xalqı onu unutmamış. Adına küçə, kitabxana. məktəblər vermişlər. Bakıda heykəli, Şuşada büstü ucaldılmışdı. Xan qızının əlyazmaları, şəxsi geyimləri, əşyaları arxiv və muzeylərdə saxlanılır. Çox sevindirici haldır ki, Azərbaycan ədəbiyyatının inkişafında xüsusi rol oynamış Xurşidbanu Natəvanın 180 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalamışdır.

## ƏDƏBİYYAT

1. Köçərli F. Ədəbiyyatımıza dair məktub. Şərqi-rus.- 1904.- №252.-18 dekabr.
2. Məmmədov B. Natəvanın şair qohumları. Bakı, Yazıçı, 1989. 88 s.
3. İmrani R. "Azərbaycan muğam sənətinin tarixi və elmi-nəzəri əsasları" doktorluq dissertasiyası. Bakı, 1998
4. İmrani R. Bakı musiqi məclisləri. Bakı, Qobustan, 1984. № 2, s.13-16.
5. Köçərli F. Seçilmiş əsərləri. Tərtib və qeydlər Kamal Talıbzadə və Nadir Məmmədov, red. K.Talıbzadə. - Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1963. - 341 s.
6. Кочарли Ф. Литература Азербайджанских татар. Шарги-рус. 1903.

***AMEA Memralıq və İncəsənət İnstitutu***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***
***e mail: samir.dasmanov@mail.ru***

**Shamsa Gulmammadova**

**KHURSHIDBANU NATAVAN**

The article highlights the life and creative path of Khurshidbanu Natavan, the daughter of the last Karabakh Khan, the head of the Majlis of Poetry and Music "Majlisi-uns", and the beloved poetess of Azerbaijan. Information is also provided about the poetess's life, activities, and meetings with prominent figures of that time. The article highlights the historical meeting of Khurshidbanu Natavan with the great French writer Alexandre Dumas. The article also provides information about the poetess's deep knowledge and her passion for painting. Excerpts from the poems of Khurshidbanu Natavan are also presented here.

**Keywords:** *Khurshidbanu Natavan, Karabakh, Majlisi Uns, poetry, music, poetess.*

**Шамса Гюльмамедова**

**ХУРШИДБАНУ НАТАВАН**

В статье освещен жизненный и творческий путь Хуршидбану Натаван, дочери последнего Карабахского хана, руководителя меджлиса поэзии и музыки «Маджлиси-унс», любимой поэтессы Азербайджана. Приводятся также сведения о жизненном пути поэтессы, деятельности, встречах с видными деятелями того времени. В статье освещается историческая встреча Хуршидбану Натаван с великим французским писателем Александра Дюма. В статье также представлена информация о глубоких знаниях поэтессы и о ее увлечением живописи. Здесь также представлены отрывки из стихов Хуршидбану Натаван.

**Ключевые слова***: Хуршидбану Натаван, Карабах, Маджлиси унс, поэзия, музыка, поэтесса.*

*Akadmik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 06.02.2024**
**Son daxilolma tarixi:17.03.2024**